

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 28 (23.915)

*11 fevral 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## *Rəsmi xronika*

Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popeskunu qəbul edib.

Prezident İlham Əliyev ötən ilin dekabrında Moldova Prezidenti Maya Sandu ilə Brüsseldə keçirdiyi görüşü məmnunluqla xatırlayıb və ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli inkişafı üçün böyük potensialın olduğunu vurğulayıb.

Nazir Niku Popesku ölkələrimiz arasında diplomatik münasibətlərin olduğu 30 ilə yaxın müddətdə həmrəylik prinsipindən çıxış edərək Azərbaycan və Moldovanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini diqqətə çatdırıb. Niku Popesku iqtisadi, ticarət, sərmayə qoyuluşu, kənd təsərrüfatı, enerji sahələrində və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirib, bu sahələrdə konkret layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 10 fevral tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında vergi sisteminin inkişafında xidmətlərinə görə bir qrup vergi xidməti işçisi təltif edilmişlər. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin əməkdaşları da vardır.

**Əsgərov Elşad Novruz oğlu**

**Kərimov Faiq Ramiz oğlu**

1-ci dərəcəli “Vergi orqanlarında xidmətdə fərqlənməyə görə” medalı ilə təltif edilmişlər.

## Əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyəti daha da yaxşılaşdırılır

*Səhiyyənin inkişafı ilə bağlı həyata keçirilən islahatlar dövlətin sosial siyasətinin başlıca istiqamətlərindən biridir. Son dövrlər muxtar respublikada müasir tibbi avadanlıqlarla və maddi-texniki baza ilə təchiz olunmuş xəstəxanaların, həkim ambulatoriyalarının və digər səhiyyə obyektlərinin istifadəyə verilməsi və güclü kadr potensialının yaradılması insan amilinə verilən dəyərin bariz nümunəsidir.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***“Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır”*** fikrinə uyğun olaraq muxtar respublikada əhalinin sağlamlığının qorunması istiqamətində təkcə 2017-ci ildən 1 yanvar 2022-ci il tarixədək Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Şərur Rayon Mərkəzi Xəstəxanası, Şərur Rayon Uşaq Xəstəxanası, Babək rayonunun Kültəpə, Ordubad rayonunun Vənənd, Culfa rayonunun Camaldın, Şahbuz rayonunun Ağbulaq kəndlərində həkim ambulatoriyaları olmaqla, ümumilikdə, 7 xəstəxana, 19 həkim ambulatoriyası, 22 feldşer-mama məntəqəsi və digər səhiyyə obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Səhiyyə sisteminin yeni dövrün tələblərinə uyğunlaşdırılması, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması 2021-ci ildə də davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin, modul tipli xəstəxananın, Şərur və Şahbuz Rayon Gigiyena və Epidemiologiya şöbələrinin, Şərur rayonunun Şəhriyar və Çərçiboğan, Ordubad rayonunun Nüsnüs, Yuxarı Əndəmic və Dırnıs kəndlərində həkim ambulatoriyası binalarının, Şərur rayonunun Dərvişlər, Ordubad rayonunun Vələver, Babək rayonunun Araz kəndlərində feldşer-mama məntəqələrinin tikintisi, Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin, Ordubad Rayon Uşaq Xəstəxanası binalarının və Babək rayonunun Göynük kəndində feldşer-mama məntəqəsinin yenidən qurulması başa çatdırılmışdır.

2021-ci ildə muxtar respublikanın səhiyyə müəssisələrinə 17 təcili tibbi yardım avtomobili, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə və onun rayon şöbələrinə isə, ümumilikdə, 9 avtomobil verilmişdir.

Hərbi qulluqçuların sağlamlığının qorunması və hərbi tibb müəssisələrində həyata keçirilən tikinti-quruculuq işlərinin davamı olaraq 2021-ci ildə muxtar respublikada müasir standartlara cavab verən Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı tikilərək istifadəyə verilmişdir.

Muxtar respublikada tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən müxtəlif dövrlərdə müvafiq sərəncamlar imzalanmış, muxtar respublika ərazisində tibbi sığortanın tətbiqinə başlanılmışdır.

Son dövrlər Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi üçün korpusun, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına yeni imkanlar yaratmışdır. Bundan əlavə,



tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri səhiyyə sahəsində görülən işləri yüksək qiymətləndirərək demişdir: ***“Səhiyyə sisteminin maddi-texniki bazasının müntəzəm olaraq möhkəmləndirilməsi, yüksək səhiyyə xidmətinin təşkili öz bəhrəsini verir. Artıq muxtar respublikada ciddi problem yaradan xəstəliklər yoxdur, insanların sağlamlığı daim diqqət mərkəzində saxlanılır”.***

İnsanların sağlamlığının qorunmasında keyfiyyətli ərzaq məhsulları ilə yanaşı, içməli su təminatı da mühüm rol oynayır. Su ilə yayıla bilən xəstəliklərin azaldılması və su mənbələrinin təmizlənməsi inkişaf edən ölkələrdə əhəmiyyətli sağlamlıq tədbiridir.

Bu istiqamətdə muxtar respublikada yeni kaptajlar tikilmiş və içməli su xətləri çəkilmiş, mövcud kaptajlar və içməli su xətləri bərpa olunmuşdur. Son illər Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksi, Naxçıvan şəhərdaxili, Tumbul, Qaraçuq, Qaraxanbəyli, Hacıniyyət və Bulqan kəndlərində içməli su təchizatı və kanalizasiya sistemləri, Şərur rayonunda Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin birinci və ikinci mərhələsi, Sutəmizləyici Qurğular Kompleksi, Zeyvə, Düdəngə kəndlərində və Cəlilkənddə içməli su şəbəkəsi, Babək rayonunun Şəkərabad, Şıxmahmud və Xəlilli kəndlərinin, Culfa və Şahbuz şəhərlərinin, eləcə də ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemləri istifadəyə verilmişdir.

2021-ci ildə Ordubad rayon mərkəzi və



ətraf kəndlərinin, Babək rayonunun Araz kəndində içməli su təchizatı və kanalizasiya sistemlərinin, Şərur rayonunun Sərxanlı kəndində içməli su şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Babək, Kəngərli və Sədərək rayon mərkəzlərində, ətraf qəsəbə və kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin, Culfa rayonunun Yaycı, Kəngərli rayonunun Qarabağlar, Xok, Yurdçu və Qabıllı, Sədərək rayonunun Dəmirçi kəndlərində içməli su şəbəkələrinin tikintisi davam etdirilmişdir.

Ekoloji sabitliyin təmin olunması və ətraf mühitin qorunması əhali sağlamlığını şərtləndirən əsas amillərdən biridir. Muxtar respublikada geniş vüsət almış yaşıllaşdırma tədbirlərinin nəticəsi olaraq təkcə 2017-ci ildən 1 yanvar 2022-ci il tarixədək muxtar respublikada 2790 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 1 milyon 926 min ağac və gül kolu əkilmişdir.

Muxtar respublikada iqtisadi fəaliyyətin bütün sahələrində aparılan genişmiqyaslı islahatlar və səhiyyə sisteminin sürətli inkişafı əhalinin sağlamlığının qorunmasına və ömür uzunluğunun artırılmasına, sağlam cəmiyyətin formalaşdırılmasına xidmət etməkdədir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən cari ildə aparılan sosial islahatlarda pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, bu məqsədlə pensiya artımı xüsusi yer tutur. Belə ki, ölkə başçısı “Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında” 2022-ci il 8 fevral tarixdə

## Əmək pensiyalarının sığorta hissəsi artırılacaq və əmək pensiyaçılarına maddi yardım veriləcəkdir

Sərəncam imzalayıb. Sərəncama əsasən cari ildən əmək pensiyalarının minimum məbləği 20 faiz, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən uşağın anadan olmasına görə birdəfəlik müavinətin məbləği 50 faiz, sığortaolunanlar vəfat etdikdə onu dəfn etməyi öhdəsinə götürən şəxsə dəfn üçün müavinətin məbləği 17 faiz, əmək pensiyaçıları vəfat etdikdə onu dəfn etməyi öhdəsinə götürən şəxsə ödənilən dəfn üçün müavinətin məbləği isə 20 faiz artırılıb. Sərəncama əsasən ortaaylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 2022-ci il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsinin məbləği 3,4 faiz indeksləşdirilərək artırılacaqdır.

İndeksasiya vətəndaşların müraciəti olmadan muxtar respublika üzrə 40 min 107 əmək pensiyaçısına şamil ediləcək və artımların ödənilməsinin həyata keçirilməsinə fondun büdcəsindən hər ay orta hesabla 390 min 109 manat əlavə vəsait yönəldiləcəkdir.

Bundan əlavə, Sərəncama əsasən ölkəmizdə ilk dəfə olaraq əmək pensiyaçılarına (“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən qulluq stajına görə əlavə alan şəxslər istisna olmaqla) rüb ərzində 50 manat məbləğində, ümumilikdə, il ərzində 200 manat olmaqla, əmək pensiyaçılarına maddi yardım ödəniləcək. Muxtar respublika üzrə pensiyaçılara maddi yardımın ödənilməsi üçün rübdə 2 milyon 5 min 350 manat əlavə vəsait ayrılacaqdır.

Həmçinin istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq muxtar respublika üzrə fərdi uçot sistemində qeydiyyatda olan 182 min 512 sığortaolunanın fərdi hesabının sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğləri də yanvarın 1-dən indeksləşdirilməklə 6,7 faiz artırılacaqdır.

Sərəncamın operativ icra edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən pensiyaların artımlarının hesablanması üçün fondun yerli qurumlarına müvafiq tapşırıqlar verilib və pensiyaların sığorta hissəsinin məbləğinin artırılması prosesinə başlanılıb.

Qeyd edək ki, muxtar respublikada fevral ayı üçün ödənilən pensiyalar fevral ayının 4-də başa çatdırılıb. Buna görə də, yanvar və fevral aylarının artımları, həmçinin cari ilin birinci rübü üzrə 50 manat məbləğində maddi yardımlar ay ərzində pensiyaçılara ödəniləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Muxtar respublikada müasir vergi sistemi yaradılıb

*Ulu öndərimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə vergi münasibətlərinin tənzimlənməsi sahəsindəki sistemsizlik və boşluqlar aradan qaldırılmış, bu sahənin kompleks inkişafı təmin edilmişdir. 2001-ci ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsinin qəbul olunması isə qanunvericilik bazasını möhkəmləndirmişdir.*



Ötən dövrdə iqtisadi siyasətin ayrılmaz tərkib hissəsi olan vergi siyasətində də əsaslı islahatlar aparılmış, bu sistem müasir standartlar səviyyəsində formalaşdırılmışdır. Ümummilli liderimizin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi vergi orqanlarında elektron vergi sisteminin yaradılması, axtarış-hesabat sistemlərinin qurulması və geniş elektron təhlil bazasının formalaşması, vergitutma bazasının genişləndirilməsi və vergilərin ödənilməsi üzərində nəzarətin gücləndirilməsinə gətirib çıxarmışdır.

Azərbaycan Respublikasının vergi sistemində aparılan islahatlar muxtar respublikanı da əhatə etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 12 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi yaradılmış, Naxçıvan Muxtar Respublikasının bəzi mərkəzi icra hakimiyyəti orqanlarının yenidən təşkil edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 7 yanvar tarixli Fərmanı ilə dövlət orqanlarında müvafiq struktur dəyişikliklərinin aparılması məqsədilə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi Dövlət Vergi Xidmətinə çevrilmişdir. Fəaliyyət göstərdiyi dövrdə xidmət böyük inkişaf yolu keçmiş, onun maddi-texniki bazası xeyli gücləndirilmiş, vergi qurumları üçün müasir standartlara cavab verən binalar tikilərək istifadəyə verilmiş, əməkdaşlar üçün hərtərəfli iş şəraiti yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov vergi orqanları əməkdaşlarının qarşısında mühüm vəzifələr qoyaraq demişdir: ***"Muxtar respublikanın vergi orqanlarında çalışanlar öz işlərini qanunvericiliyin tələblərinə uyğun qurmalı, hüquqi və fiziki şəxslər tərəfindən vergilərin vaxtlı-vaxtında ödənilməsi, vergiödəyicilərinə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi və vətəndaşlar arasında maarifləndirmə işlərinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmalıdır".***

Muxtar respublikada vergiödəyicilərinə göstərilən elektron xidmətlərin genişləndirilməsi müasir dövrün ən aktual məsələlərindən biridir. Məqsəd perspektivdə vergiödəyiciləri ilə canlı əlaqə formalarını məhdudlaşdırmaq və bu sahədə müasir informasiya texnologiyalarından istifadə etməklə vergi orqanları tərəfindən göstərilən xidmətlərin elektron formada tətbiqinin genişləndirilməsinə nail olmaqdır. Dövlət Vergi Xidmətində 2007-ci ilin dekabr ayından avtomatlaşdırılmış vergi informasiya sistemi (AVİS) tətbiq edilərək daxili sənəd dövriyyəsi, hesabat-məlumat sistemi tam elektronlaşdırılmış, bəyannamələrin elektron formada göndərilməsinə və vergiödəyicilərinə elektron xidmətlərin daha geniş şəkildə göstərilməsinə başlanılmışdır. Xidmət tərəfindən "Elektron-bəyannamə" sisteminin tətbiqi isə vergi orqanları ilə vergiödəyiciləri arasında əlaqələrin tam şəffaflaşmasına səbəb olmuş, vergi öhdəliklərinin yerinə yetirilməsinə sərf olunan vaxt itkisinin qarşısını almışdır. Vətəndaşlar və vergiödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsini təmin etmək məqsədilə 2010-cu ildən etibarən "onlayn kargüzarlıq" sisteminin tətbiqinə başlanmışdır. Artıq vergiödəyiciləri vergi orqanları ilə yazışmaları internet vasitəsi ilə aparır. Bu sistemlə həm də vergi ödəyicilərinin məlumatlandırılması, onların ərizə, şikayət və təkliflərinə baxılması, vergi orqanlarına göndərilən məktubların daxili hərəkətinə nəzarət həyata keçirilir.

2008-ci il yanvar ayının 1-dən sahibkarlıq subyektlərinin qeydiyyatında "bir pəncərə" prinsipinin tətbiqi kommersiya hüquqi şəxslərin qeydiyyat prosedurlarının təkmilləşdirilməsi və sərf edilən müddətin azalması ilə nəticələnmişdir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində 2011-ci il iyul ayının 1-dən etibarən fiziki şəxslərin elektron qeydiyyatına başlanmışdır. Bu sistemin tətbiqi ilə fiziki şəxslərin vergi orqanlarına getmədən, vaxt itkisinə yol vermədən bir neçə dəqiqəyə elektron qaydada qeydiyyata düşməsi təmin edilir. Ona görə də sahibkarlıq fəaliyyətinə başlamaq üçün qeydiyyata düşənlərin sayı sürətlə artır. Belə ki, 2008-ci il yanvar ayının 1-dən 2022-ci il fevral ayının 1-dək 415 kommersiya hüquqi şəxs və 29051 fiziki şəxs qeydiyyata alınmışdır.

Muxtar respublikada nağdsız ödəniş infrastrukturunun yaradılması, əməliyyatların həcminin artırılması və rəqəmsal ödəniş xidmətlərindən istifadənin daha da genişləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamına əsasən "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq mövcud rəqəmsal ödəniş infrastrukturunun (POS-terminal, bankomat və digər ödəniş terminalları) daha da təkmilləşdirilməsi, özəl sektorda işçilərin əməkhaqlarının nağdsız formada (ödəniş kartları vasitəsilə) ödənişinin başa çatdırılması və digər istiqamətdə işlər davam etdirilmiş, nağdsız ödənişlərin həcminin artırılması məqsədilə kart sahibləri arasında həvəsləndirici tədbirlər keçirilir. 2014-cü ildən başlayaraq keçirilən "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin, ümumilikdə, 16 tirajında 4733 muxtar respublika sakini 290 min manat dəyərində müxtəlif hədiyyələr qazanmışdır.

Ölkə iqtisadiyyatında makroiqtisadi göstəricilərin daha da yaxşılaşdırılması fonunda Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməklə sahibkarların vergi yükü azaldılır, vergi inzibatçılığı daha da təkmilləşdirilir. 2022-ci il yanvarın 1-dən etibarən edilən əlavə və dəyişikliklərə əsasən vergi siyasəti iqtisadiyyatın bugünkü tələblərinə uyğun olaraq təkmilləşdirilir. Ölkədə biznes mühitinin yaxşılaşdırılması sahibkarlıq fəaliyyətinin daha da inkişaf etdirilməsi məqsədini daşıyır. Vergi Məcəlləsinə dəyişikliklər bərabər və şəffaf mühitin təmin edilməsi, sahibkarlıq fəaliyyətinin təşviqi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin və sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması kimi məqsədləri əhatə etmişdir.

Dövlət Vergi Xidməti tərəfindən kadr islahatlarına da diqqət artırılmış, gənc kadrların işə qəbulu davam etdirilmişdir. 2009-2022-ci illərdə dövlət vergi orqanlarına xidmətə qəbul test imtahanı ilə keçirilmiş, 114 namizəd vergi orqanlarında xidmətə qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinə göstərilən dövlət qayğısı təkcə maddi-texniki bazanın yaxşılaşdırılması ilə məhdudlaşmır. Belə ki, vergi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir, əməkhaqları artırılır, səmərəli fəaliyyət göstərən vergi əməkdaşlarının əməyi dövlətimiz tərəfindən qiymətləndirilir, onlar müxtəlif dövlət mükafatlarına layiq görülürlər. Dövlət Vergi Xidmətinin kollektivi göstərilən dövlət qayğısının və yaradılan şəraitin müqabilində qarşıya qoyulan vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə çalışacaq, muxtar respublikanın davamlı inkişafına öz töhfəsini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan səmərəli istifadəyə dövlət nəzarəti diqqətdə saxlanılıb

Muxtar respublikada əmlak və torpaq münasibətlərinin nizamlanmasında fəaliyyətin təkmilləşdirilməsi, habelə vətəndaşların mülkiyyət hüquqlarının dövlət reyestrində qeydiyyata alınması zamanı operativliyin təmin edilməsi Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən cari ilin yanvar ayı ərzində diqqət mərkəzində saxlanılaraq mütəşəkkil davam etdirilib.

Cari ilin ilk ayı ərzində 589 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 433 texniki sənəd hazırlanıb, yeni yaranmış 28 daşınmaz əmlak obyektinə ünvan verilib, 102 torpaq sahəsinin planı və ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb. Səyyar xidmət vasitəsilə 6 yaşayış məntəqəsində vətəndaşların müraciətinə baxılıb, 87 fiziki və hüquqi şəxs elektron xidmətlərdən yararlanıb. Mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və daşınmaz əmlakla bağlı digər əməliyyatların aparılması üçün vətəndaşlardan 1912 ərizə qəbul edilib.

7 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar 12 ailə təsərrüfatının icarəsinə verilmiş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

Torpaqlardan istifadə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun Tənənəm, Tumaslı, Püsyan və Dərvişlər kəndlərinin ərazisində monitorinqlər başa çatdırılıb, müəyyən edilmiş qanun pozuntularının aradan qaldırılması üçün işlər aparılıb. Şərur rayonunun Muğanlı, Həmzəli, Axura, Alışar kəndlərinin və Kəngərli rayonunun Qıvraq qəsəbəsinin ərazisində isə monitorinqlər davam etdirilib.

Culfa və Babək rayonları ərazisində bərk məişət tullantılarının idarə edilməsi üçün nəzərdə tutulan sahələrin planı, habelə 35 dislokasiya xəritəsi hazırlanaraq aidiyyəti üzrə təhvil verilib. Təbii antropogen və texnogen amillərin təsiri ilə deqradasiyaya məruz qalan torpaq sahələrinin monitorinqinin nəticələrinə dair xəritə materialları Torpaqların elektron kadastr uçotu informasiya sisteminin keyfiyyət xarakteristikaları xəritəsinə yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası***
***Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə***
***Dövlət Xidmətinin mətbuat xidməti***

*Ailə təsərrüfatlarımız*

## Ailə təsərrüfatlarının sahibkarlığın inkişafındakı rolunun artmasında dövlət qayğısı mühüm amildir

*Fevralın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan Biznes Mərkəzində növbəti dəfə muxtar respublika sahibkarları ilə görüşdü. Görüşdə* ***"Sahibkarlığın inkişafından danışarkən ailə təsərrüfatları modeli xüsusilə qeyd olunmalıdır"****, – deyən Ali Məclisin Sədri qeyd etdi ki, bu gün muxtar respublikada ailə təsərrüfatlarının inkişafı özünüməşğulluğu təmin etməklə yanaşı, həm də kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradır. Eyni zamanda özünüməşğulluq tədbirləri sırasında əhalinin aztəminatlı təbəqəsi aktiv əməyə cəlb edilir, dövlət tərəfindən bu kateqoriyadan olan ailələrə dəstək göstərilir.*

Görüşdə səsləndirilən maraqlı faktlardan biri də o idi ki, ötən il kənd təsərrüfatının müxtəlif sahələri üzrə fəaliyyət göstərən 76 ailə təsərrüfatına Sahibkarlığın İnkişafı Fondu tərəfindən 1 milyon 221 min manat dövlət maliyyə dəstəyi göstərilmiş, ailə təsərrüfatları 5000 ədəd 27 cəşiddə tara ilə təmin olunmuşlar.

Tədbirdə Kəngərli rayonunun Çalxanqala kəndində şərab istehsalı ilə məşğul olan ailə təsərrüfatçısı Mətləb Dünyamalıyev demişdir: "Kəngərli rayonunun Çalxanqala kəndində ailə təsərrüfatçısı kimi çaxır emalı ilə məşğul oluruq. Təsərrüfatımıza göstərilən diqqət və qayğı fəaliyyətimizi daha da genişləndirməyə ruhlandırmış, ümumi dəyəri 50 min manat olan yeni çaxır emalı sahəsinin qurulması məqsədilə Sahibkarlığın İnkişafı Fonduna müraciət etmişik. Məhsulun müxtəlif ölçülərdə və dizaynda qablaşdırılması əmtəə görünüşünə də əlavə dəyər qatır. Artıq ailə təsərrüfatımız kiçik sahibkarlıq subyekti kimi formalaşmış, istehsal olunan məhsullarımızın "Xum çaxırı" əmtəə nişanı ilə satışı həyata keçirilir. Bir neçə ildir ki, məhsullarımız Naxçıvan şəhərindəki iri ticarət mərkəzlərində satışa çıxarılır, eləcə də sifariş əsasında Bakı şəhəri və Rusiyaya göndərilir. Ailəmizə məxsus həyətyanı sahədə bir çox meyvə, cəviz, badam ağacları əkmişik. Hazırda ailəmizə məxsus 1 hektardan çox üzüm bağımız var. Ən çox gəlir əldə etdiyimiz sahə üzümçülük olduğundan bu il də üstünlüyü bu sahəyə vermişik və yeni üzüm bağının salınması istiqamətində işlər aparırıq. Ötən il 200 litr üzüm arağı, 1500 litr isə çaxır istehsal etmişik. "Ailə təsərrüfatı məhsulları"nın satış yarmarkasına 200 litrdən çox çaxır çıxararaq satışını həyata keçirmişik. Təsərrüfatımıza ailə üzvlərimizlə yanaşı, əlavə işçi qüvvəsi də cəlb etmişik".



Mətləb Dünyamalıyevin rəhbərlik etdiyi ailə təsərrüfatının fəaliyyəti haqqında indiyədək oxucularımıza bir neçə dəfə məlumat vermişik. Xatırladaq ki, bu ailə təsərrüfatı 2019-cu ildə "Aktiv ailə təsərrüfatı" müsabiqəsinin nəticələrinə görə I yerə layiq görülmüşdür. Yarandığı dövrdən keçən müddətdə daim inkişaf edərək keyfiyyətli məhsul istehsal etməyə çalışan və bu istəyinə də nail olan ailə təsərrüfatının hazırkı fəaliyyəti ilə bağlı məlumat almaq üçün yenidən həmin təsərrüfatda olduq.

Mətləb Dünyamalıyev bizimlə söhbətində bildirdi. Hazırda təsərrüfatımız yeni inkişaf dövrünü yaşayır. İstehsal etdiyimiz şərab məhsulları sifariş əsasında muxtar respublikamızdan kənarda da satışa çıxarılır və alıcılar tərəfindən rəğbətlə qarşılanır. Buna görədir ki, məhsullarımıza tələbat getdikcə daha da çoxalır. Bu isə istehsal həcmini artırmaq məcburiyyətini qarşımıza qoyur. Buna görə də ötən müddətdə həyətyanı sahəmizdə ümumi sahəsi 160 kvadratmetr olan yeni yardımcı təsərrüfat binası tikdik ki, buranı da, əsasən, emal sahəsi üçün nəzərdə tutmuşuq. Burada emal üçün iki ədəd çaxır çəni və şərabın saxlanılması üçün böyükölçülü gil küpələr yerləşir. Digər yardımçı bölmədə isə məhsulun qablaşdırılması və etiketlənməsi həyata keçirilir. Ancaq işlərimiz tam olaraq yekunlaşmayıb, yeni binada əlavə işlərin aparılmasına, müəyyən avadanlıqların alınmasına, o cümlədən kommunikasiya xətlərinin başa çatdırılmasına zərurət var. Buna görə də, maliyyə dəstəyi üçün Sahibkarlığın İnkişafı Fonduna müraciət etdik və müraciətimiz nəzərə alındı.

"Bəs məhsulun istehsal həcmini artırmaq üçün üzüm sahələriniz yetərlidirmi?" sualına isə sahibkar belə cavab verdi:

– Əlbəttə, şərab istehsalını artırmaq tədarük etdiyimiz üzümün həcminin artırılmasını zəruri edir. Bunun üçün də üzüm sahələrini genişləndirməliyik. Hələlik bu il sahəni 0,3 hektar artırmağı nəzərdə tutmuşuq. Bildiyiniz kimi, bizim əkin sahələrimizdə, əsasən, şərab üçün istifadə olunan qara üzüm sortları yetişdirilir. Üzümlükləri artırmaq üçün isə sahənin suvarma suyu ilə təminatı, torpağın üzvi gübrələrlə zənginləşdirilməsi, əkilən üzüm tinglərinin beton dirəklərlə təmin olunması və sair böyük zəhmətlə bərabər, həm də maliyyə tələb edir. Buna görə də bütün bu işləri, sadəcə, öz ailə büdcəmiz hesabına etməyimiz çətindir. Dövlətimizə minnətdarıq ki, fəaliyyətimiz üçün bizə hərtərəfli dəstək göstərir. Bir məsələni də vurğulamaq istəyirəm ki, bizim məhsulların qablaşdırılması, əsasən, digər ölkələrdə istehsal edilən şüşə qabların gətirilməsi ilə bağlıdır. Şükürlər olsun ki, dövlətimiz bu işlərdə də bizə hərtərəfli köməklik edir. Bu istiqamətdə indiyədək fəaliyyətimiz olub, yaxınlarda əlaqədar məhsul istehsalçıları ilə yenə də görüşlərimiz olacaq. Çalışacağıq ki, istehsal etdiyimiz məhsulların qablaşdırılmasında istifadə etdiyimiz qablar keyfiyyətli və ticari görünüşü baxımından cəlbedici olsun. Çünki keyfiyyətli qablaşdırma xarici bazarlarda ən çox diqqət yetirilən məsələlərdəndir.

Mətləb Dünyamalıyevlə təsərrüfatın gələcək fəaliyyəti ilə bağlı xeyli söhbət etdik. Gələcəkdə məhsul istehsalının artırılmasının Naxçıvanın şərabçılıq ənənələrinin təbliğinə, muxtar respublikada mətbəx turizminin inkişafına mühüm töhfələr verəcəyini bildirdik. O isə bunun yolunun yorulmadan çalışmaqdan, muxtar respublikada ailə təsərrüfatlarına göstərilən dövlət qayğısından layiqincə yararlanmaqdan keçdiyini bildirdi.

Bu gün muxtar respublikamızda ailə təsərrüfatlarına böyük dövlət qayğısı göstərilir. Onlara təsərrüfatlarını yaratmaq üçün lazımi yardımlar olunur, istehsal etdikləri məhsulun satışı üçün hərtərəfli şərait yaradılır. Mətləb Dünyamalıyev kimi zəhmətkeş, öz işini bilən təsərrüfatçılar isə bu imkanlardan istifadə edərək milli iqtisadiyyatımızın inkişafına öz töhfələrini verməyə çalışırlar.

**Səbuhi HƏSƏNOV**

## Culfa rayon məktəbliləri ilə görüş



*Fevralın 10-da Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev ilə Culfa Rayon Təhsil Şöbəsinin əhatə etdiyi ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin görüşü keçirilib.*

Təhsil Nazirliyi aparatının sektor müdiri Mətanət Əliyeva giriş sözü ilə tədbiri açaraq qeyd edib ki, görüşün keçirilməsində məqsəd alimlərin məktəblə əlaqələrinin möhkəmləndirilməsi, maarifləndirmə işlərinin genişləndirilməsi, eləcə də məktəblilərin elmə olan marağının artırılması və onların müxtəlif təşəbbüslərinin stimullaşdırılmasıdır.

AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev şagirdlərlə görüşdə 98 il bundan əvvəl Naxçıvan Muxtar Respublikasının yaradılması zərurəti ilə bağlı, Naxçıvan tarixinin muxtariyyət dövrü haqqında geniş məlumat verib. Şərqin qapısı adlandırılan Naxçıvanda XIX əsrin 20-ci illərindən başlayan ictimai-siyasi proseslər, savadsızlığın aradan qaldırılması, mədəni inqilabın həyata keçirilməsi, Naxçıvan üçün mühüm tarixi əhəmiyyətə malik Qars müqaviləsinin imzalanması və sair hadisələr haqqında məlumatlar şagirdlərin diqqətinə çatdırılıb. Akademik XX əsrin 90-cı illərində Naxçıvanın çətin müharibə şəraitində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə muxtar respublikanın blokada vəziyyətində necə mübarizə aparmasından, əhalinin sosial-iqtisadi durumunun yüngülləşdirilməsi üçün qonşu dövlətlərlə diplomatik danışıqların əhəmiyyətindən bəhs edib. Vurğulanıb ki, yalnız 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən ümummilli lider Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində muxtar respublikada sabitlik təmin edildi, həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində Naxçıvanda sabitlik, tərəqqi və həmrəylik təmin olundu. Milli quruculuq siyasəti bu gün muxtar respublikamızda ulu öndərin layiqli davamçısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilir.

Qeyd olunub ki, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı misilsiz qələbənin də Naxçıvan tarixində əhəmiyyətli rolu vardır. qədim İpək yolunun üzərində yerləşən Naxçıvanın gələcək inkişafında mühüm rol oynayacaq Zəngəzur dəhlizinin açılması bu inkişafı sürətləndirəcəkdir. Hadisələrin tarixi inkişafı göstərir ki, Azərbaycan və Naxçıvan etibarlı əllərə əmanət edilib.

Görüşdə şagirdlər qonağa çoxsaylı suallar ünvanlayıblar.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

## İxtisasartırma kursunu müvəffəqiyyətlə bitirən müəllimlərə sertifikat verilib

*Naxçıvan Dövlət Universitetində bu münasibətlə keçirilən tədbirdə əvvəlcə ali təhsil ocağında təşkil olunan Kimya, Fizika və Biologiya fənləri üzrə ixtisasartırma kursu ilə bağlı Universitet televiziyasının hazırladığı videoçarx nümayiş olunub.*



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev muxtar respublikada tədris üçün yaradılan şəraitdən, elmdə və təhsildə qazanılan uğurlardan söhbət açıb. Rektor universitetdə Kimya, Fizika və Biologiya ixtisasında təhsil alan tələbələrin müasir şəraitdə qurulan laboratoriyalarda dərs keçmələrinin gələcəkdə bilavasitə ümumtəhsil məktəblərində şagirdlərin bilik və bacarıqlarının artırılmasına hesablanan addım olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, sözügedən fənlərin universitetdə bakalavr, magistratura və doktorantura pillələrində kadr hazırlığı həyata keçirilir. Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə bir çox nümunəvi dərs, layihə və kursların həyata keçirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsində xüsusi önəm kəsb edir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışaraq bildirib ki, ümumtəhsil məktəblərinin müasir laboratoriya avadanlıqları ilə təmin edilməsi dəqiq elmlərin tədrisinin inkişafına, müəllimlərin peşə hazırlıqlarının yüksəldilməsinə, şagirdlərin bu sahədəki bilik və qabiliyyətlərinin artırılmasına böyük stimul yaradıb. Orta məktəb müəllimlərinin mütəmadi olaraq bu cür kurslara cəlb olunması peşəkarlıq səviyyələrinin artırılmasına, laboratoriyaların imkanlarından tədris prosesində geniş istifadə etmələrinə müsbət təsir göstərir.

Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov keçirilən kurs haqqında məlumat verərək qeyd edib ki, 5 gün davam edən ixtisasartırma kursunda ümumtəhsil məktəbləri üzrə hər ixtisasdan 20 nəfər olmaqla, ümumilikdə, 60 müəllim iştirak edib. Təşkil edilən kurs universitetin kabinə və laboratoriyalarında hər gün 2 saat olmaqla təsdiq edilmiş qrafik və müəllimlərin də təklifləri əsasında müəyyən olunan mövzular üzrə həyata keçirilib. Bir sıra mövzular müasir avadanlıqlarla qurulan laboratoriya və kabinələrdə əyani şəkildə kurs iştirakçılarına izah edilib.

Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin müəllimi Arzu Kərimli çıxış edərək müəllimlərin peşəkarlıq səviyyələrinin artırılması üçün təşkil edilən kursa görə müəllimlər adından minnətdarlıq edib.

Sonda sertifikatlar təqdim olunub.

**Naxçıvan Dövlət Universitetinin mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi**

## Seminar keçirilib



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və Maliyyə Nazirliyinin yanında Maliyyə Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə “Bələdiyyələrin maliyyəsinin formalaşması və yerli büdcə vəsaitlərindən istifadə olunması ilə bağlı qanunvericiliyin tələbləri” mövzusunda Naxçıvan şəhər Qaraçuq kənd mərkəzində bələdiyyələr üçün seminar təşkil olunub.

Bələdiyyə sədrlərinin və bələdiyyə qulluqçularının, eləcə də Naxçıvan Şəhər İcra Hakimiyyətinin nümayəndəsinin iştirak etdiyi seminarda mövzu ilə bağlı çıxışlar dinlənilib.

Sonda iştirakçılara metodik vəsait təqdim edilib.

**Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti**

***Naxçıvan torpağı tanınmış alimlər, müğənnilər, musiqiçilər, bəstəkarlar, rəqqaslar yetirib. Tariximizin, mədəniyyətimizin misilsiz sərvəti olan milli rəqslərimiz bu torpaqda yaşadılıb, qorunub saxlanılıb. Hansı ki həmin rəqslər insan ruhunun, daxili dünyasının gözəlliklərini ortaya çıxarır, öz ahəngi və cazibəsi ilə tamaşaçıların diqqətini cəlb edir. Bir sözlə, bu zaman dil susur, musiqi danışır, əllər, ayaqlar hərəkət edir, baxışlar, üzün ifadəsi rəqsin məzmununa görə dəyişir. İnsanın zövqünü oxşayan əvəzolunmaz, musiqi və emosional hərəkətlər məcmusu olan rəqslərimiz illər keçsə də, həmişəcavan qalıb. Rəqslərimizi yaşadan, onları həmişəcavan saxlayan məhz bu sənət üçün doğulanlardır. Hansı ki onlar da milli rəqs sənətini öz tələbələrinə, gələcək nəsillərə ötürərək yaşadırlar. Onlardan biri Naxçıvan torpağının yetirməsi olan Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Prezident mükafatçısı, Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının baletmeysteri Tamerlan Bağırovdur. Onun bu yaxınlarda 70 yaşı tamam olacaq. Ömrünün 50 ildən çoxunu milli rəqs sənətinin yaşadılmasına sərf edən Tamerlan Bağırovla həmsöhbət oluram.***

## Sənətinə, doğulub böyüdüyü torpağa olan sevgisi onu yaşadır



– Tamerlan müəllim, heç yaşınızı göstərmirsiniz, bu yaşda belə şux, qamətli, cavan qalmağınızın səbəbi nədir? – deyə ondan soruşuram. Bu suala cavabında tanınmış rəqqas deyir: – Əvvəla, sənətimə olan sevgim, ikincisi də yaşadığım torpağa, Naxçıvana olan məhəbbətim.

Qarşımda könül verdiyi sənətin, doğulub, böyüdüyü torpağın sevgisi ilə sanki gündən-günə cavanlaşan bir insan görürəm. Söhbət zamanı öyrənirəm ki, Tamerlan müəllim 1952-ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində anadan olub. Orta təhsilini Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbdə alıb. Rəqsə maraq isə onda elə uşaq yaşlarından başlayıb. Tamerlan müəllim bu barədə geniş danışaraq deyir:

– Evimiz Naxçıvan şəhərindəki köhnə Pionerlər Evinin olduğu tərəfdə yerləşirdi. Azərbaycan peşəkar rəqs sənətinin banisi, tanınmış rəqqas Əlibaba Abdullayevin Naxçıvana gəlməsi o zaman mənim həyatımda dönüş nöqtəsi oldu. Həmişə onun rəhbərliyi ilə oynanılan rəqslərə baxırdım. Bir gün məni yanına çağırdı, bir müddət oynanılan rəqsləri izləyəndən sonra məndə də bu sənətə həvəs yarandı. Altı yaşımdan rəqs sənətini öyrənməyə və məşğul olmağa başladım. İlk konsertimi kollektivlə birgə elə altı yaşımda olarkən verdik. 1958-ci ildən 1968-ci ilə qədər Pionerlər Evində əvvəlcə xor dərnəyində, sonra isə rəqs dərnəyində fəaliyyət göstərdim. Həmin illər ərzində o zaman tanınmış bəstəkar Məmməd Məmmədovun Naxçıvan Pioner və Məktəblilər Evində yaratdığı və bədii rəhbərlik etdiyi “Əlvan çiçəklər” Mahnı və Rəqs Ansamblının solisti olmuşam. O gündən bu günə kimi rəqs kollektivinin rəqqası və baletmeyster köməkçisi, 80-ci illərdən isə baletmeyster vəzifəsində çalışıram. O zaman bir rəqqasın 20 il səhnə ömrü var idi. Təqaüdə çıxdıqdan sonra Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının baletmeysteri kimi qalmışam, işləmişəm. Heç bir ali təhsil almamışam. Oxumağım üçün təkid də ediblər, amma sənəti üstün tutmuşam. Qastrol səfərlərində olmağı çox sevirdim. O vaxt bizim qastrollar iki-üç ay çəkirdi. İlin altı, yeddi ayını qastrol səfərlərində keçirirdim. O ölkə yoxdur ki, orada olmayam: İsveçrə, Almaniya, Macarıstan, Polşa, Türkiyə, Rusiya, Gürcüstan, Orta Asiya respublikaları və sair. O dövrdə rəqsə maraq, tamaşaçının ifaçını qarşılamağı başqa idi. Səhnədə bir rəqsi üç, dörd dəfə alqışla oynayırdıq. Bir gündə elə olub ki, üç konsert vermişəm. Səhər məktəblilərə, günorta kolxozçulara, axşam da digər tamaşaçılara. Roza Cəlilova, Yuri Davidov və başqa rəqqas və baletmeysterlərlə işləmiş, Şövkət Ələkbərova, Nəzakət Məmmədova, Zeynəb Xanlarova, Əlibaba Məmmədov kimi tanınmış musiqi xadimləri ilə birgə konsertlərdə, qastrol səfərlərində olmuşam. Muğamımızın xanı sayılan Xan Şuşinskinin xüsusi təşəkkürünü almışam. Müxtəlif fəxri fərmanlar, yubiley medalları ilə təltif edilmişəm.

Tamerlan müəllim qeyd edir ki, sevdiyi milli rəqslərdən biri qız və oğlanın müşayiəti ilə ifa olunan “Naz eləmə” rəqsidir: – Bu rəqsdə iki gəncin bir-birinə ülvi məhəbbət hissləri tərənnüm edilir. Bu rəqsin musiqisinin, quruluşunun müəllifi və ilk ifaçısı Əlibaba Abdullayev olubdur. Özüm qurduğum 60-70-ə





yaxın rəqs vardır. “Vətən”, “Azərbaycan”, “Naxçıvan” süitalarını, qızlar üçün lirik rəqslər qurmuşam. Naxçıvan yallılarının digər ölkələrdə təbliğinə çalışmışıq. Filarmoniyada kamera, estrada, simfonik orkestrləri üçün bu gün də rəqs quruluşu verirəm. Hazırda 26-30 belə rəqs professional səhnədə oynanılır. Baletmeyster kimi balet əsərinə quruluş verir və operalarda balet səhnələrini, xoreoqrafik musiqi nömrələrini qurub hazırlayıram. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında dahi bəstəkar Üzeyir Hacıbəylinin “Koroğlu”, “Leyli Məcnun” kimi operaların quruluşunu vermişəm. Bildirim ki, rəqs qurulanda anlamı olmalıdır. Tamaşaçı rəqsə baxanda bilməlidir ki, bu rəqs hansı bölgəyə, hansı ölkəyə aiddir. Ona görə mədəniyyət haqqında ümumi anlayışın olmalıdır. Səhnədə rəqsin bir dəqiqəsi insanın yeddi kilometr qaçışda itirdiyi enerjiyə bərabərdir. Ürək, nəfəs, görkəm lazımdır ki, tamaşaçı rəqsi qəbul eləsin. Sənət cavanlığı, gözəlliyi sevir.

Qeyd edim ki, Tamerlan Bağırovun bu günə qədər milli rəqslərimizi öyrətdiyi yüzlərlə qız və oğlan yetişdirmələri vardır. Müsahibim deyir ki, 6-40 yaş arasında tələbələrim olub. Hazırda 18 tələbəm vardır. Tələbələrimin hamısına öz övladım, nəvəm kimi baxmışam. Onları heç bir maddiyyat güdmədən hazırlaşdırıram. Yüzlərlə tələbəm olub, dərs dediklərimdən də bir qəpik tələbim olmayıb, əksinə, çalışmışam ki, həmişə onlara kömək əlimi uzadam. Bu gün xarici dövlətlərdə, Türkiyənin əksər şəhərlərində, Bakıda tələbələrim vardır ki, onlar akademiyada təhsil alır, peşəkar fəaliyyət göstərirlər.

Söhbət zamanı öyrənirik ki, Tamerlan Bağırov həm də uşaqlıqdan Azərbaycanın qədim milli zərb aləti olan nağara ifaçılığı ilə də məşğuldur: – Rəhmətlik atamın aldığı nağara ilə öz üzərimdə işləmişəm. Naxçıvanda yaşayıb-yaradan ustad tarzən Səfər Rəcəbli mənə bu alətdə peşəkar ifaçılığı öyrənməyə kömək edirdi. Naxçıvanın sayılıb-seçilən nağaraçılardan olmuşam. Hazırda “Reyhan” şadlıq sarayının bədii rəhbəriyəm. 70 yaşında toyda nağara çalmaq da, yəqin ki, nadir görünən hadisələrdən biridir (gülür).

Tamerlan Bağırov həm də Azərbaycan mədəniyyətinin beşiyi sayılan Qarabağ torpağını gəzib-görmüş, orada konsert vermişdir. Müsahibim bununla bağlı deyir: – Birinci dəfə 1968-ci ildə Qarabağda səfərdə olmuşam. İldə iki-üç dəfə oraya qastrola gedirdim. Hər gedəndə də iki-üç ay qədim torpaqlarımızda qalırdım. O yerlərin təbiəti, yaşıllığı, təmiz havası, gözəlliyi məni cəlb edirdi. Bir dəfə Vyetnam Sosialist Respublikasına qastrol səfərinə dəvət olunsam da, bunu qəbul etməyib, Şuşaya, Kəlbəcərə getdim. Ən böyük arzularımdan biri yenidən Şuşanı, işğaldan azad edilmiş digər torpaqlarımızı gəzib-görməkdir.

“Tamerlan müəllim, 70 yaşınızda hələ də milli dəyərlərimizin ən gözəl nümunələri olan milli rəqslərimizi təbliğ edir, gəncləri öyrədirsiniz. Bundan sonra hansı planlarınız var?” – sualımı tanınmış rəqqasımız belə cavablandırdı:

– Deyim ki, bu yaşıma qədər məni bir çox yerlərə işləməyə dəvət ediblər. Bu sənəti sevdiyimə görə pul düşünməmişəm. Bir də Naxçıvana olan sevgim məni burada yaşamağa, çalışmağa sövq edib. Həm də ona görə ki, uşaqlıq çağlarım burada keçib, bu diyarın çörəyini yemişəm. Hansı ki sənətə, sənətkara dəyər, qiymət verilən bir diyarın. Gücüm çatana qədər də qalıb işləyəcəyəm.

Qeyd edək ki, Tamerlan Bağırovun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Ona 2006 və 2019-cu illərdə Prezident mükafatı, 2007-ci ildə isə “Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi” fəxri adı verilib. Biz də qəzet redaksiyası olaraq Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının baletmeysteri vəzifəsində çalışan, işlədiyi dövrdə xüsusi istedadı və zəhməti sayəsində süitalar, yallılar, milli rəqslər, eləcə də əcnəbi xalqların rəqslərinə quruluş vermiş, uğur qazanmış Tamerlan Bağırovu 70 illik yubileyi münasibətilə təbrik edir, ona cansağlığı, yeni uğurlar arzulayırıq.

**Güntac ŞAHMƏMMƏDLİ**

***Yolumuz Ordubad rayonunun Bist kəndinədir. Budəfəki yazımız kənddə aparılan geniş quruculuq tədbirlərindən – dümdüz yollardan, yaraşıqlı məktəb binasından, yüksək şəraitlə təmin olunmuş səhiyyə ocağından, xidmət mərkəzindən deyil. O yerlərə yolu düşənlər artıq buradakı inkişafdan kifayət qədər məlumatlıdırlar. Bu dəfə mövzumuz Ordubadın dillər əzbəri olan ləziz mətbəxindəndir. Fəslə uyğun olaraq istərdim ki, sizə nənəmlə birlikdə məhz Bist kəndinin qış yeməklərindən bəhs edim.***

*Naxçıvan mətbəxi*

# Bir kəndin qış süfrəsi



Çoxdandır ki, planlaşdırdığım kənd səfəri, nəhayət ki, keçən həftənin istirahət gününə təsadüf etdi. 92 yaşlı nənəmin evinə üz tutmağı qərarlaşdırmışam. Həm də qurut aşı yemək üçün. Bəlkə də, düşünəcəksiniz ki, bu qədər yolu məhz qurut aşı yemək üçün getməyə dəyərmi? Bəli, dəyər. Çünki o aş məni uşaqlığıma aparır. Nənəmin əllərinin, ürəyinin hərarəti ilə hazırlanan qurut aşının bir başqa ləzzəti var. Heç yadımdan çıxmır, yay tətilini nənəmgildə keçirərdim. Nənəm həyətində bəslədiyi mal-qarasının südündən tutduğu qatığı torbalara doldurar, çəpərənin (söyüd ağacının nazik budaqlarından toxunmuş, kənddə qadınların, əsasən, üzərində çörək suladığı əşya; bəzi kəndlərimizdə buna "cığ" da deyilir), üzərinə düzərdi ki, suyu süzülüb getsin, üzərinə də ağır bir daş qoyardı. Bir neçə gün orada qaldıqdan, suyu tamamilə süzüldükdən sonra həmin çəpərənin üzərinə torbaya tökdüyü qatıqdan alınan cortdanı duzlayıb, yumrulayıb düzərdi. Sonra günəş düşməyən yerdə onu qurudardı ki, rəngi saralmasın. Və bu da qış azuqələrinin ən ləziz təamlarından biri olardı.

Aha, budur, artıq nənəmgilin darvazalarının yanındayıq. Böyük həvəslə və sevinclə avtomobildən düşüb, evə doğru gedirəm. Dağlardan, düzlərdən məhz qurut aşı üçün yığılan maralotunun özünəməxsus, heç bir ota bənzəməyən qeyri-adi qoxusu ətrafı bürüyüb. Nənəm qurutduğu qurutu artıq çoxdan su ilə ovub ayran hazırlayıb. İndi isə sobanın üzərində vam odda oxlovla bulayır ki, ayran çürüməsin. Budur, gözlədiyim an – nur üzündə güllər açan nənəmlə qucaqlaşıb, görüşürük. Əlindən oxlovu alıb qurut ayranını bulamağa başlayıram. Qaz pilətəsinin digər gözündə isə ayran üçün üz hazırlayıb. Bu isə çox sadədir. Yağı dağ edib, zövqə görə soğan qızardırsan, daha sonra isə zövqə görə həmin yağ-soğana maralotu əlavə edib, söndürürsən. Nənəm qurut ayranının içərisinə düyü ilə noxud da əlavə edib. Bu da, təbii ki, zövq işidir.

Nənəmin dediyinə görə, bu təam bizim kənddə "qurut" adlandırılsa da, bəzi bölgələrdə "kələgöş" və "cələcoş" adları ilə tanınır.

Qış yeməklərindən söz düşmüşkən, nənəm cana istilik gətirən xəşil və quymaqdan da söhbət açır. Deyir ki, qış azuqəsi kimi süfrələrimizi bəzəyən təamları xəşilsiz, quymaqsız təsəvvür etmək olmaz. Bunlar bizim



dədə-baba yeməklərimizdir: – Xəşil un və suyun qarışığından hazırlanır. Bunun üçün hazırlanan bulamac suyu çəkilənə qədər bişirilir. Ayrı qabda yağ dağ olunur. Qaba çəkilən xəşilin üzəri açılır, dağ olmuş yağ və doşab əlavə edilir. Quymağı bişirmək üçün isə un və sudan istifadə olunur. Su şirə ilə qarışdırılır, un ilə çalınaraq bərk qarışıq hazırlanır. Yağda qızardılır. Quymağın yağı üzərinə çıxanda bişmiş sayılır. Nənəm deyir ki, quymaq doyumlu yeməkdir, həm də xəstələnəndə cana istilik gətirir, xəstəni tez ayağa qaldırır.

Nənəmin sözlərinə görə, əvəlik və ələyəz də Bist camaatının əvəzolunmaz və daha çox istifadə etdikləri pencərlər sırasındadır. Qış aylarında yarma və ələyəzdən, əvəlikdən bişirilən yeməklər insanın ağız dadına dad qatır. Qız-gəlinlər yaz aylarında dağlara üz tuturlar. Dağətəyi yerlərdə əvəlik, ələyəz sanki əllə səpələnibmiş kimi çox olur. Yığılan həmin pencərləri qonum-qonşunun da köməkliyi ilə yaxşıca təmizləyib, hörürük. Sonra kölgəlik yerdə quruduruq. Elə ki, payız-qış ayları gəldi, bişirib süfrəyə gətiririk. Bunların hər biri ayrılıqda bişirilir. İstər əvəlik olsun, istərsə də ələyəz, əvvəlcə qazanda qaynadırıq ki, acı suyu çıxsın və yumşalsın. Sonra onları aşsüzənə tökürük, suyu gedir. Suyu qalmasın deyə, əldə yaxşıca sıxmaq da vacibdir. Qazana yağ atıb, içərisinə də bolluca doğranmış soğan tökürük. Soğan yağda tovlanır. Qızarana yaxın yumurta vururuq. Qovurma da əlavə edib qarışdırırıq. Hazır olmuş yemək üzlü qatıqla süfrəyə bir dad gətirir.

Nənəm deyir ki, soyuq qış günlərində kənd evlərində süfrələrimizin bəzəyi olan yeməklərdən biri də əriştədir. Əriştədən hazırlanan sıyıq əriştə, çəkmə, südlü əriştə xörəkləri daha çox istifadə olunan təamlar sırasındadırlar. Əsasən, qış aylarında sevilən əriştəni kəsmək üçün hazırlıq işləri payızda aparılır. Sentyabrın sonlarından başlayaraq, demək olar ki, qışa hazırlıq işləri görülərkən əriştə kəsimi də unudulmur. Sıyıq əriştəni hazırlamaq üçün noxudu, lobyanı axşamdan islatmaq lazımdır. Bəs bunu necə hazırlayırsınız? – sualıma nənəm belə cavab verir:

– Əvvəlcə soğan yağda qızardılır. Tam qızardılmış soğanın üzərinə su əlavə edilir. Su qaynara düşəndə üzərinə kartof, lobya, noxud, alça, ərik qurusu, ələyəz əlavə olunub qarışdırılır, içərisinə bütöv soğan



əlavə edilib bişirilir. Əriştəni qaynayan suya töküb vam odda bişirmək lazımdır ki, daşmasın. Qaynayarkən əriştənin suyun üzərinə qalxması onun tam olaraq bişdiyini göstərir. Beləcə, istiotu, duzu da qaydasında vurulduqdan sonra süfrəyə verilir. Əriştədən həm də "çəkmə" hazırlanır. Onu düyü, mərcimək ilə bişiririk. Əvvəlcə əriştəni yuyur, düyünü ayrıca qaynadırıq. Düyü qaynayarkən içərisinə duz salırıq. Beş dəqiqəyə yaxın qaynayan düyünün üzərinə əriştəni əlavə edirik. İki-üç dəqiqəyə yaxın qaynatdıqdan sonra aşsüzənə tökürük. Digər qazanda azca yağ əridir, içərisinə lay-lay doğranmış soğan düzürük. Süzdüyümüz əriştə və düyünü qazana əlavə edirik. Üzərinə də qızardılmış soğanla yağ əlavə etdikdən sonra yarım saat dəmə qoyuruq. Əriştə çəkməsini eyni qaydada mərciməklə də hazırlamaq olur. Bir fərq ondadır ki, mərcimək qaynadıqca qara suyu üzə çıxır. Buna görə də mərcimək ayrıca qaynadılır, bişəndən sonra üzərinə soyuq su tökürük ki, qara suyu qalmasın. Bundan sonra əriştə ilə qarışdırılıb dəmə qoyulur.

Nənəm deyir ki, qışa hazırlıq zamanı görülən işlərin içərisində yarma üyüdülməsi kimi bir adətimiz də vardır. Yarmadan hazırlanan müxtəlif yeməklər ilin bu vaxtları böyük həvəslə bişirilib süfrəyə verilir. Onların içində yarma aşının xüsusi dadı və yeri vardır, – desək yanılmarıq. Hazırlıq ərəfəsində əvvəlcə buğda yaxşıca arıtlanır, tər-təmiz yuyulandan sonra suda qaynadılır. Suyu süzüldükdən sonra gün düşməyən yerdə çəlləyin üstünə sərir və quruduruq. Çoxları tez qurusun deyə, onu gün düşən yerə sərir. Ancaq keyfiyyətini itirməsin deyə, onu günəvər olmayan yerdə qurutmaq daha məsləhətlidir. Sonra qurudulmuş buğda dənələri kirkirədə üyüdülür, ta ki o, narın formaya düşənə kimi. Torbalara yığılır və qış üçün saxlanılır. Yeməyi hazırlamaq üçün istifadə edəcəyimiz qədər yarma götürülüb qazanda qaynadılır. Bir ovuc buğda unu qabda soyuq suda açılır, yarma aşının içinə tökülür. Aşa xüsusi ləzzət qatan pencərlər – yağlıca, ələyəz, sarmaşıq yuyulur, doğranıb suya salınır. İçinə yağda qovrulmuş soğan əlavə edilir, qatılaşana qədər odda qarışdırılır. Qovrulmuş soğana su əlavə olunur. İçərisinə yarma, ələyəz, soğan, kartof, ərik, alça salınır. Bəzən alça əvəzinə yeməyə zirinc vurulur.

Nənəmin sözlərinə görə, qışda boranıdan da müxtəlif yeməklər bişirilir. Boranı aşı, boranı plovu insan orqanizmini qışın soyuğundan, şaxtasından qoruyur, insana gümrahlıq bəxş edir.

*Qış aylarında bişirilən bir-birindən ləziz bu yeməklərin orqanizmimizə nə qədər faydalı olduğunu bilirsinizmi? İnsan immunitetinin möhkəmləndirilməsində, şaxtalı qışın müxtəlif infeksion xəstəliklərindən qorunmaqda milli mətbəximizin bu ləziz nümunələrinin yerini heç nə verməz. Elə götürək babamla nənəmi. Bistdə onlarla həmyaşıd olan kənd adamları da vardır. Düşünürəm ki, 96 yaşlı babamın, 92 yaşlı nənəmin ömürlərinə ömür qatan, onları bu yaşda bu qədər gümrah saxlayan elə bir-birindən faydalı bu təamlardır. Gəlin bu təamlardan istifadə edək – sağlamlığımız və uzunömürlü olmağımız üçün.*

✍ **Gülcamal TAHİROVA**

# Çempionatın vahid lideri – Vasif Durarbəyli



*Naxçıvan Şahmat Mərkəzində keçirilən kişilər arasında şahmat üzrə Azərbaycan çempionatında növbəti turun oyunları arxada qalıb.*

Naxçıvanlı zəka sahibi beynəlxalq usta Pərviz Qasımov (2379) bu turu məğlubiyyətlə başa vurub. Şahmatçımız qrossmeyster Misrətdin İsgəndərova (2566) məğlub olub. Beynəlxalq usta Toğrul Həsənzadə (2292) də turu xalsız bitirib. Belə ki, o, beynəlxalq usta İsmayıl Şahəliyevlə (2380) görüşdə məğlubiyyət acısı dadıb. Qrossmeyster Urfan Sevdimalıyev (2359) FIDE ustası Sadiq Məmmədovla (2220) heç-heçə edib. Beynəlxalq usta Talıb Babayev (2256) isə FIDE ustası Elmar Atakişiyevi (2240) məğlub edərək çempionatda ilk xalını qazanıb.

Bu turda liderlər qrossmeyster Vasif Durarbəyli (2615) və beynəlxalq usta Murad İbrahimli (2418) qarşılaşıb. Görüş Vasifin qələbəsi ilə yekunlaşıb. Turun maraqla gözlənilən qarşılaşmasında qrossmeyster Aydın Süleymanlı (2530) qrossmeyster Eltac Səfərlidən (2597) üstün olub. FIDE ustası Xəzər Babazadə (2427) qrossmeyster Nicat Məmmədovla (2604), FIDE ustası Elvin Bayramov (2280) qrossmeyster Fərid Abbasovla (2527), beynəlxalq usta Əhməd Əhmədzadə (2467) isə beynəlxalq usta Məhəmməd Muradlı (2528) ilə xalları yarı bölüb. FIDE ustası Zaur Bayramov (2357) FIDE ustası Vüqar Manafovdan (2299), FIDE ustası Uğur İlyaslı (2310) FIDE ustası Atilla Eynullayevdən (2324), FIDE ustası Şiroğlan Talıbov (2307) isə FIDE ustası Fərid Mustafayevdən (2322) üstün olub.

6 turdan sonra turnir cədvəlinə hazırda 5 xalla Vasif Durarbəyli başçılıq edir.

Qeyd edək ki, birinci mərhələ İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq. İlkin mərhələdə 1-4-cü yerləri tutan şahmatçılar 2-ci mərhələdə play-off sistemi üzrə yarımfinal (I-IV, II-III) və finalda ölkə çempionunu müəyyən edəcəklər.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin yanvar ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 4630 | 393,6 | 393,6 | 100,0 |
| 2. | Şərur rayonu | 1656 | 137,8 | 137,8 | 100,0 |
| 3. | Babək rayonu | 1750 | 146,6 | 146,6 | 100,0 |
| 4. | Ordubad rayonu | 773 | 64,5 | 64,5 | 100,0 |
| 5. | Culfa rayonu | 983 | 81,4 | 81,4 | 100,0 |
| 6. | Kəngərli rayonu | 680 | 57,5 | 57,5 | 100,0 |
| 7. | Şahbuz rayonu | 508 | 43,4 | 43,4 | 100,0 |
| 8. | Sədərək rayonu | 250 | 20,8 | 20,8 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 15348 | 1561,6 | 1463,7 | 93,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **26578** | **2507,2** | **2409,3** | **96,1** |

**Qeyd:** Yanvar ayında texniki itki nəzərə alınmaqla verilən 26 milyon 578 min kilovat/saat elektrik enerjisinin dəyəri 2 milyon 507 min 200 manat olmuş, cəmi 2 milyon 409 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 96,1 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin yanvar ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 7466212 | 905756 | 905862 | 100,0 |
| 2. | Ordubad rayonu | 1973605 | 239108 | 239133 | 100,0 |
| 3. | Culfa rayonu | 2059157 | 247445 | 247466 | 100,0 |
| 4. | Babək rayonu | 4612288 | 554967 | 555003 | 100,0 |
| 5. | Şərur rayonu | 3795372 | 456326 | 456351 | 100,0 |
| 6. | Şahbuz rayonu | 1009108 | 123638 | 123642 | 100,0 |
| 7. | Kəngərli rayonu | 1621952 | 194746 | 194748 | 100,0 |
| 8. | Sədərək rayonu | 603705 | 72563 | 72563 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 15046449 | 3054472 | 2830920 | 92,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **38187848** | **5849021** | **5625688** | **96,2** |

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 138